## Unudulmazlar

# Şərqin bənzərsiz xanəndəsi

**Yaranışı qədim muğam sənətimizin yaradıcılarından, yaşadanlardan, sağlam düşüncəli, saf əqidəli, ömrünü xalqımızın bu mənəvi sərvətinin qorunmasına, inkişafına, dünyada tanınmasına sərf edənlərdən biri də qüdrətdən səs vergili Cabbar Qaryağdıoğlu olmuşdur. Yaxın günlərdə H.Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxtımızda keçirilən beynəlxalq muğam festivalında korifey sənətkar da ehtiramla xatırlandı.**

Bu yazıda unudulmaz muğam ustadının həyatı və ifaları barədə bəzi məqamları oxucuların diqqətinə çatdırırıq.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev Milli vokal sənətinin banilərindən biri, 16 yaşından ömrünün sonuna kimi musiqimizi yaxın-uzaq ellərdə tanıtdıran şair, bəstəkar, xanəndə Cabbar Qaryağdıoğlunun xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb. Tarixi sənəddə qeyd olunur ki, Bakı Şəhər İcra Hakimiyyəti Cabbar Qaryağdıoğlunun qəbirüstü abidəsinin ucaldılmasını, həmin ərazidə abadlıq işlərinin görülməsini və Bakı şəhərinin küçələrindən birinə onun adının verilməsini, Mədəniyyət və Turizm Nazirliyi xanəndənin həyat və yaradıcılığı haqqında sənədli filmin çəkilməsini təmin etsin. Azərbaycan MEA onun həyat və yaradıcılığından bəhs edən kitabın hazırlanması və nəşr edilməsi üçün müvafiq tədbirlər görsün.

***

Əlamətdar hadisə münasibətilə adı musiqi tariximizə qızıl hərflərlə yazılmış **Cabbar əminin (hamı ona belə müraciət edərmiş) qızı Şəhla xanım Qaryağdı - Kürçaylı (o, mərhum şair Əliağa Kürçaylının həyat yoldaşı olub) ilə görüşdük.** O dedi:

- Sənət, sənətkar qədri bilən, ulu öndər Heydər Əliyevin ideyalarını, arzularını, amallarını şərəflə, layiqincə yaşadan, davam etdirən, istər ölkəmizdə, istərsə də dünyada böyük nüfuz, hörmət qazanmış cənab Prezident İlham Əliyev verdiyi sərəncamdan xəbər tutanda uşaq kimi kövrəldim. Şükür etdim, qürur hissi duydum ki, illərlə çəkdiyim əzablara, həsrətə son qoyuldu.

Atamın 1924-cü ildə şəhərin "Qırx pilləkən" adı ilə tanınan yerdə tikdirdiyi 20 otaqlı, üçmərtəbəli evini 1986-87-ci illərdə Bakı şəhərinin sabiq meri Rafael Allahverdiyevin və sabiq baş memarı Elbəy Quliyevin qərarı ilə "şəhərin görkəminə xələl gətirən köhnə bina" bəhanəsilə sökülmüş, xatirə lövhəsi ayaqlar altına atılmışdı. Həmin binada edib, "Molla Nəsrəddin"çi Əli Nəzmi və qəzəlxan Əliağa Vahid də yaşamışdı. 1992-ci ildə Bakı Şəhər İH qərara almışdı ki, vaxtilə atamın yaşadığı küçəyə (köhnə Bünyadski) onun adı verilsin. Ancaq Şeyx Şamilin adı verildi. Yadımdadır, hələ atamın sağlığında bu küçəyə "Cabbar əmi küçəsi" deyərdilər.

Bu sözlər atamın dilinin əzbəriydi: "Məndən ötrü heç kəsdən xahiş etməyin, heç kəsə minnətçi düşməyin. Əgər mən doğma millətim üçün xeyirxah iş görmüşəmsə, özləri axtarıb tapacaq, qiymətimi verəcəklər".

Budur, qədirbilən insanlar, şəxsən dövlətimizin başçısı cənab İlham Əliyev atamın müqəddəs ruhunu şad, onun həyat və yaradıcılığını bilənlərə isə sevinc bəxş etdi.

Tarixi mənbədən: Cabbar Qaryağdıoğlu 1861-ci ilin bahar çağında Şuşada dünyaya göz açmışdı. Uşaqlıq illəri boyaqçı, halal əməyi ilə ruzi qazanan atası İsmayılın yanında keçmişdi. Atası onu hara buyurubsa tərəddüdsüz gedib, nə tapşırıbsa yerinə yetirib. Çünki İsmayıl kişi həddən artıq zəhmli, qaraqabaq adam imiş. Elə bu cəhətlərinə görə ona el arasında "Qaryağdı" da deyərlərmiş. Sonralar o, bu deyimi atasının zülmündən - boyaqçı olmaq istəyindən can qurtaranda - 16 yaşında məlahətli səsilə, bənzərsiz ifa qabiliyyəti ilə sayılıb-seçiləndə özünə təxəllüs götürmüşdü. Harada, hansı məclislərdə olardısa, "Qaryağdıoğlu" deyimini eşidəndə ayaq üstə durarmış, ehtiram əlaməti olaraq baş əyərmiş. O, xatirələrində yazıb: "Atamın soyuq münasibətinə, ətrafındakı insanlara qaynayıb-qarışmadığına görə Qaryağdı deyərdilər. Mən isə isti, səmimi münasibətimlə qan əritdim. Ancaq o adı daşımaqdan, yaşatmaqdan qürur hissi duyardım".



Cabbar Qaryağdı oğlu

***

**Şəhla xanımın dediklərindən:**

- Babamın beş oğlu olub. Cabbar, Məhərrəm, məşhur heykəltəraş Cəlal, Məhəmməd, Qafar atalarına qarşı ehtiramlı olub, xatirəsini yaşayanda da, dünyasını dəyişəndən sonra da əziz tutublar. Rəhmətlik dindar olduğundan züriyyətlərini də bu ənənəni üstün tutmağı vadar etmişdi. Onlar isə başqa-başqa peşə seçmişdilər.

İlk dəfə Məcnun rolunu atam Şuşada "Bazar başı" meydanında açıq havada oynayıb. İlk sənədli filmimiz "Neft və milyonlar səltənəti"ndə atam çəkilib. Dahi Üzeyir bəy yazıb: "Leyli və Məcnun" səhnəciyini 1897-ci ildə Əbdürrəhman bəy Haqverdiyevin quruluşunda "Bazar başı" deyilən yerdə, Məcnunun - Cabbarın Leylinin məzarı üstündə fəryadını, axıtdığı göz yaşlarını görəndə özümü saxlaya bilmədim, mən də ağladım. Nəhayət, 1907-ci ildə operanı tamamladım".

Tarixi mənbədən: Cabbar 10 yaşında məktəbə gedir. Müəllimi - "Saqərə" təxəllüsü ilə tanınan, yüksək səviyyəli ziyalı Mirzəli Zeynalabdinoğlu olmuşdur. Ondan ana dili ilə yanaşı, ərəbcə, farsca öyrənmiş, musiqiyə meyli daha da artmışdı. O, şagirdlik dövründə kövrək, həzin şeirlər də yazmışdı. Bir gün 16 yaşlı Cabbarı müəllimi özüylə el şənliyinə aparır. Orada Hacı Hüsnü, Məşədi İsa, Sadıqcan, Cavadbəy Əlibəyoğlu çalıb-oxuyurdular. Mirzəli müəllim xahiş edir ki, icazə versinlər Cabbar da bir ağız oxusun. Gəncin şirin, məlahətli səsi dinləyənləri ovsunlayır. Handan-hana məşhur ifaçı Hacı Hüsnü deyir: "Gələcəkdə bizim yerimizi bu cavan xanəndə tutacaqdır".

Həmin xoşbəxt hadisədən sonra Cabbarın adı hər yerdə, hər zaman hörmətlə çəkilir. Ancaq atası ondan küsür. Çünki boyaqçı yox, xanəndə olur. Azərbaycanın əksər bölgələrində, İranda, Orta Asiya respublikalarında keçirilən el şənliklərinə, toylara dəvət alır. O, harada oxuyubsa, azərbaycanlı olmağı ilə fəxr edib. Yazdığı şeirlər, bəstələdiyi mahnılar təəssüf ki, bu gün də xalq mahnıları adı altında səsləndirilir. O, xatirələrində yazıb: "Tar sənətinin qüdrətli ifaçısı Qurban Pirimovla toy məclisinə getmişdim. Bəy qızını - gəlini tərifləmək vaxtı yetişəndə, onun boy-buxununu, yaraşığını görmək istədim ki, sözlərim elə-belə yox, inandırıcı olsun. Lakin qızın atası razılıq vermədi. Onun İrəvandan olduğunu, bir də üzündə xal olmasını dedi. Qurbana işarə etdim ki, mən getdim, sən də ardımca gəl:

*İrəvanda xal qalmadı,*
*O xal nə xaldır,*
*Qoşa düzdürmüsən?..*

Görkəmli tarzən Qurban Pirimov ifa başa çatandan sonra dedi: "Cabbar, ananın südü, udduğun Şuşanın havası sənə halal olsun. Səni xanəndə kimi tanıyırdım, heç demə, sən həm də bəstəkarmışsan". Məhz onun sayəsində, ifasında səslənən xeyli mahnılar "itbata" düşsə də, bir çoxları hələ də "Qızıl fond"da saxlanılır".

**Şəhla xanımın dediklərindən:**

- Atam ömür-gününü sənətə həsr etmişdi. Bu səbəbdən ailə qurmağa tələsməmişdi. Axır ki, 51 yaşında ailə qurmuşdu. Anam Xızıdan, sənətkar ailəsindən idi. Gəlin köçəndə 15 yaşı olub. Ömürlərinin axırına kimi bir-birlərinə can deyib, can eşitdilər. Atam həddən artıq evcanlı, ailə qayğısı çəkən insan idi. Bazarlığı özü edərdi. Dəfələrlə görmüşəm ki, Mir Cəfər Bağırov yol keçəndə "Salam Cabbar əmi, kefin-əhvalın necədir?" - deyə, soruşardı. 1938-ci ildə Moskvada keçirilən incəsənət günlərində Azərbaycan nümayəndəliyi də iştirak edirdi. Nədənsə mahir ifaçı - atam orada olmur. Gözlənilmədən Stalin soruşur: "Hanı Qafqazın qoca Cabbarı?" Bəhanə uydururlar: "Xəstədir, gələ bilmədi" - deyirlər. Stalin İttifaqın o dövrdəki "Şöhrət" ordenini atama göndərir.

Atamın çox dostları vardı. Dahi şairimiz Səməd Vurğun bizə gələndə həmişə onun dəfindən, yanağından öpüb şirin ləhcə ilə deyərdi: "Dağların döşündə durur Qarabağ, Xəyalı gəzdirən hər qaya, hər dağ..." Bizim Mikayıl Müşfiq kimi bəxtsiz, talesiz Sergey Yesenin atamın Varşavada yazdırdığı valın üstünə "Cabbar Şərq musiqisinin peyğəmbəridir" sözlərini yazıb. Atam xanəndələrin oxuduqları mahnıların çoxunun mətnini yenidən işləmişdi. Bu günümüzə gəlib çatmış "Rast", "Segah" təsniflərinin müəllifidir. "Qalada yatmış idim", "Üç gündən bir, beş gündən bir", "Qalalıyam, qalalı", "Sona xatun", "Qarabağda bir dənəsən", "Gəlin gedək Daşaltına gəzməyə" mahnı və təsniflər onun adı, yaradıcılığı ilə bağlıdır. Dünya şöhrətli sənətkar Bülbül yazıb: "İlk dəfə əyalətlərdə konsertlər, soydaşlarımıza ləzzət verən ifaçımız Cabbar olub". Atam Füzulinin, Vaqifin, Şirvaninin, Zakirin şeir və qəzəllərini oxuyarmış. M.S.Ordubadi, M.Ə.Sabir, Ə.Haqverdiyev, C.Cabbarlı ilə möhkəm dostluq edərmiş. Anam Səlimə xanım ondan 36 yaş kiçik idi. Bu yaşıma çatmışam, hələ onların arasındakı qarşılıqlı sevginin, məhəbbətin bənzərini görməmişəm. Onların bir-birinə qarşılıqlı məhəbbətləri əqidələrində, düşüncələrində, ürəklərində idi. Atam ailə qurandan sonra daha ləzzətlə, həvəslə oxumuşdu. Çünki anam elə tanışlıqlarının ilk günündən ona mənəvi dəstək olmuşdu.

***

Şəhla xanım bir müddət susur. Yaşarmış gözlərini silir. Başını qaldırıb divardan asılmış ataanasının birgə foto-portretlərinə baxır. Hıçqır-hıçqır ağlayır. Handan-hana qırıq-qırıq danışır:

**- Atam dünyasını dəyişəndə mənim 14 yaşım vardı. Xüsusi tapşırıq vermişdilər ki, onun cənazəsi filarmoniyadan götürülsün, birinci Fəxri xiyabanda dəfn olunsun. Dövlət səviyyəsində keçirilən mərasimin komissiya sədri yazıçı Mirzə İbrahimov idi. Lakin hansı qüvvənin təsirindənsə əksinə alındı. Onu Yasamal qəbiristanlığında dəfn ediblər. O zamanlar qadınlara icazə vermirdilər ki, dəfn mərasimi zamanı qəbiristanlığa getsinlər. İllərlə atamın məzarını axtardım. Görənlərdən, bilənlərdən soruşdum. Axır ki, tapdım. Kimsəsiz, unudulmuş qəbir necə olardı? Batmışdı, elə bil orada 70 il səsiylə, şeirləri, qəzəlləri, ifaları ilə doğma xalqına xidmət edən sənət korifeyi yox, elə belə kimsə basdırılmışdı. Hara, kimə müraciət etdim, əhəmiyyəti olmadı. Məzarı dəmir hasara aldırdım. İllər ötüb keçdi. Xalqımız müstəqillik qazandı. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı müqəddəs bildiyimiz insanların ruhlarını da şad etdi. 2005-ci il noyabrın 24-də Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya məktub ünvanladım. Çox sağ olsun, qısa müddətdə ondan cavab aldım. Fürsətdən istifadə edib deyirəm: Mehriban xanım, mərhəmətinizə, diqqətinizə görə ömrüm boyu sizə minnətdar olacağam.**

***

...Cənab Prezidentin sərəncamından sonra Şərq dünyasının bənzərsiz xanəndəsi Cabbar Qaryağdıoğlunun məzarını ziyarət etməyə getmişdik. Orada "Adsız məzar" adlı sənədli filmin çəkilişi aparılırdı. İnanırıq ki, sərəncamdan irəli gələn başqa tədbirlər də tezliklə həyata keçiriləcəkdir.

Telman MEHDİXANLI